# Tibbi-sosial ekspert komissiyası yeni təmir olunmuş binaya köçürülmüşdür



Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Qəbələ və Oğuz rayonlarını əhatə edən 18 nömrəli Tibbi Sosial Ekspert Komissiyası (TSEK) 18 sentyabr 2015-ci il tarixdən Qəbələ şəhəri Həzi Aslanov küçəsində yerləşən inzibati binada fəaliyyətini davam etdirəcək.

Binada komissiyanın fəaliyyət götərməsi üçün otaqlar təmir olunmuş, müasir standartlara cavab verən avadanlıqlar quraşdırılmışdır.

Açılış mərasimində iştirak edən Respublika Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reablitasiya Xidmətinin rəisi İlqar Qurbanov bölgələrdə əhaliyə tibbi-sosial ekspertiza xidmətinin maddi-texniki bazasının yaxşılaşdırılması və əlillik müayinələrinin müasir tələblərə uyğunlaşdırılması sahəsində işlərin davam etdirildiyini bildirib. O, hazırda nazirliyin nəzdində 38 regional TSEK-in fəaliyyət göstərdiyini və son bir ildə onların iş şəraitinin müasir tələblərə uyğun qurulması sahəsində müvafiq tədbirlərin görüldüyünü qeyd edib.

Xidmət rəisi bildirib ki, artıq 31 bölgə üzrə TSEK-lər müasir iş şəraiti ilə təmin edilib. İlin sonunadək digər 7 bölgədəki komissiyalar da yeni iş şəraiti, ekspertiza cihazları, müasir avadanlıqlarla təmin ediləcəklər. Əsas məqsəd odur ki, vətəndaşlar bu komissiyalara müraciət edərkən normal iş şəraitində qəbul olunsunlar və keyfiyyətli xidmətlə təmin edilsinlər. TSEK-lər və nazirliyin eyni region üzrə digər yerli qurumlarının bir binada yerləşdirilməsi vətəndaşlara sosial müdafiə, məşğulluğun və əmək hüquqlarının təminatı, tibbi-sosial ekspertiza üzrə əlaqəli iş şəraitində eyni məkandan xidmətlər göstərilməsinə imkan yaradır.

Tədbirdə çıxış edən nazirliyin əlillərin sosial müdafiəsi siyasəti şöbəsinin müdiri Saday Abdullayev bildirdi ki, son dövrlər tibbi-sosial ekspertiza xidmətinin şəffaflaşdırılması istiqamətində görülən işlər bu sahə ilə bağlı şikayətlərin kəskin azalmasına, komissiyalarda əhaliyə layiqli səviyyədə xidmət göstərilməsinə, əlillik müayinələrinin normal şəkildə aparılmasına şərait yaradıb. Prezident İlham Əliyevin “Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi haqqında” 14 sentyabr 2015-ci il tarixli Fərmanı bu sahə ilə bağlı mühüm islahatların növbəti mərhələsinin başlanğıcıdır. Fərmanın uğurla icrası həm müasir informasiya texnologiyalarının tətbiqinin təkmilləşdirilməsinə, həm də tibbi-sosial ekspertiza və reablitasiya xidmətlərinin keyfiyyətinin daha da yüksəldilməsinə gətirib çıxaracaq.

Açılış mərasimində Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavinləri Arif Allahverdiyev və Ətayə Osmanova iştirak etmişlər.

Sonra tədbir iştirakçıları TSEK əməkdaşlarının fəaliyyəti, yeni iş şəraiti, müayinə avadanlıqları, vətəndaşlara göstərilən tibbi-sosial ekspertiza xidmətləri, əlillik müayinələrinin aparılması üçün yaradılmış şəraitlə tanış olublar.

**Oqtay MƏMMƏDOV.**
**Foto İ. Vəlizadənindir.**

# Əmək yarmarkası keçirildi

“Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanununa, Qəbələ Rayon İcra Hakimiyyəti başçısının 2015-ci il üçün təsdiq etdiyi “Ərazi Məşğulluq Proqramı”na, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq xidmətinin qrafikinə uyğun olaraq rayon məşğulluq mərkəzinin təşkilatçılığı ilə 23 sentyabr 2015-ci il tarixdə işsiz və işaxtaran vətəndaşların səmərəli məşğulluğunu təmin etmək məqsədilə aktiv məşğulluq tədbiri olan əmək yarmarkası keçirildi.

Yarmarkanı giriş sözü ilə açan Rayon Məşğulluq Mərkəzinin direktoru Elxan Səlimov ölkə başçısının həyata keçirdiyi uğurlu iqtisadi siyasət nəticəsində Azərbaycan iqtisadiyyatının davamlı inkişafından və bu proseslərə Dövlət Məşğulluq Xidmətinin verdiyi töhfələrdən danışdı: “Ölkənin davamlı inkişafının təmin olunması məqsədilə həyata keçirilən mühüm dövlət proqramları nəticəsində makroiqtisadi göstəricilər ilbəil artır, böyük infrastruktur layihələr icra olunur, respublikanın bütün bölgələrində yeni yaradılan iş yerlərinin sayı durmadan artır. Bütün bunlar təbii ki, əhalinin məşğulluq imkanlarının artmasına xidmət edir”.



Rayon icra hakimiyyətinin nümayəndəsi Fəxrəddin Bağırov, Dövlət Məşğulluq Xidmətinin nümayəndəsi Ülvi İsmayılov və başqaları çıxış edərək, əmək yarmarkasının keçirilməsinin bugünkü əhəmiyyətindən, Prezident İlham Əliyevin işsiz əhalinin məşğulluğunun təmin edilməsi, yoxsulluğun aradan qaldırılması istiqamətində qarşıya qoyduğu vəzifələrdən danışdılar.



Yarmarkaya hazırlıq dövründə aparılan genişmiqyaslı təşkilati işlərin, xüsusilə işəgötürənlərlə yaradılan qarşılıqlı əməkdaşlıq münasibətlərinin nəticəsində bu mühüm aktiv məşğulluq tədbirində işəgötürənlərin, işsiz və işaxtaran vətəndaşların fəal iştirakı təmin edildi. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq, rayon ərazisində fəaliyyət göstərən 45 müəssisə və təşkilat 334 boş iş yeri verərək, yarmarkada iştirak edirdi. Yarmarkaya gələn 481 nəfər iş axtaran vətəndaşların 99 nəfərinə münasib işlərə göndəriş verildi.

Tədbir günün ikinci yarısına qədər davam etdi. Yarmarkanın işində Qəbələ RİH başçısının müavini Arif Allahverdiyev iştirak edirdi.

**“Qəbələ”.**
**Fotolar İ. Vəlizadənindir.**

# Müvəffəqiyyətimiz çoxdur

Yeni dərs ilinin başlanması ilə əlaqədar respublikanın hər yerində olduğu kimi Aydınqışlaq kənd tam orta məktəbində də tədbir keçirildi. Tədbirdə Aydınqışlaq kənd inzibati ərazi nümayəndəliyinin məsul işçiləri, kənd bələdiyyəsinin üzvləri, valideynlər iştirak edirdi. Tədbirə dövlət himnimizlə start verildi. Tədbiri giriş sözü ilə məktəbin direktoru Sevil Nəbiyeva açdı. Sonra kənd icra nümayəndəliyinin məsul işçisi Simuzər Cabbarova, bələdiyyə sədri İmran Cabbarov, ağsaqqal Cümşüd Cavadov və başqaları çıxış etdilər. Sonda birincilər şeir söylədilər. Bu gün hamı, ən çox isə valideynlərinin əlindən tutub ilk dəfə məktəbə gələn birinci sinif şagirdləri sevinirdilər.

Bu il məktəbimizdən on iki nəfər şagird respublikanın müxtəlif ali məktəblərinə daxil olub tələbə adı qazanmışdır. Onlardan Mikayılova Ləman Sənan qızı 650 bal, Yusibli Lalə Rahim qızı 610 bal, Ağazadə Ləman Maarif qızı 600 bal toplayaraq tələbə adına layiq olmuşlar.

Mən yeni dərs ilində məktəbi bitirəcək onbirincilərə daha yüksək nəticələr göstərərək tələbə adı qazanmağı arzulayıram. Bütün dünya xalqlarına dinclik və firavanlıq arzulayıram.

**Məhəmməd CABBARLI,**
**M. Bilalov adına Aydınqışlaq kənd tam orta məktəbin şagirdi.**